# Füzuli aeroportuna sınaq uçuşlarının başlaması qürurverici hadisədir

***Məlum olduğu kimi, bu il sentyabrın 5-də Füzuli Beynəlxalq Hava Limanında əlamətdar hadisə baş verib. Belə ki, hava limanının istismara verilməsindən əvvəl, Bakıdan uçan "Azərbaycan Hava Yolları" na məxsus "Airbus A340-500" tipli böyük sərnişin təyyarəsi sınaq reysi həyata keçirərək işğaldan azad olunmuş Qarabağın ilk hava limanında eniş icra etmişdir.***



Bu hadisə ölkə ictimaiyyətini, bütün vətənpərvər insanları çox sevindirib. İstefada olan ədliyyə polkovniki Əfrahim Təhməzov bu barədə fikirlərini bizimlə bölüşərkən dedi:

– Fizuli beynəlxalq hava limanının istismara verilməsindən əvvəl burada artıq ilk sınaq uçuşlarının uğurla keçirilməsi barədə xəbəri məni çox duyğulandırdı. Sevindirici məqam həm də ondan ibarətdir ki, ilk sınaq reysini həyata keçirən təyyarə "Qarabağ" adını daşıyır.

Bundan əlavə, Azərbaycanın "Silk Way" aviaşirkətinə məxsus ən böyük yük təyyarələrindən biri olan "Boeing 747-400" tipli hava gəmisi də Füzuli Hava Limanına eniş edib. Bu təyyarə ilə Qarabağa ilk dəfə hava yolu vasitəsilə yüklər çatdırılmışdır.

Bəli, təxminən, bir il bundan qabaq işğal altında olan ərazilərimizə indi artıq təyyarələrimiz sərnişinlər daşıyırlar. Hamı kimi mən də çox sevinirəm. Gözlərimizin önündə doğma Qarabağımız dünyanın ən gözəl məkanlarından birinə çevrilir. Bundan necə qürur duymamaq olar?! Dövlət başçısının qeyd etdiyi kimi, bu hava limanı Qarabağa hava qapısı olacaq.

Bütün bunlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Füzulidə, Şuşada, külli Qarabağda aparılan tikinti-quruculuq, abadlıq işlərinə birbaşa nəzarəti sayəsində mümkün olmuşdur. İşğalçı Ermənistanın dağıtdığı yerləri Azərbaycan yenidən qurur, bərpa edir və abadlaşdırır.

Mətbuatdan öyrəndim ki, Füzuli Beynəlxalq Hava Limanında uzunluğu 3000 metr, eni 60 metr olan uçuş-enmə zolağı istismara verilmişdir. Uçuş-enmə zolağı, ICAO-nun bütün tələblərinə uyğun olaraq uçuşların təhlükəsizliyini təmin etmək üçün instrumental enmə və naviqasiya sistemləri, işıqtexniki, ilkin və ikincil radiolakasiya sistemləri ilə tam təchiz olunmuşdur. Bu, hava limanına istənilən tip təyyarələrin qəbul edilməsinə imkan verəcəkdir. Perronun sahəsi 60 min kvadratmetr təşkil edir.

Sentyabrın sonunda istifadəyə verilməsi nəzərdə tutulan sərnişin terminalının qarşısında 150 avtomobil üçün nəzərdə tutulan dayanacaq inşa edilmişdir. Həmçinin, Füzuli Beynəlxalq Hava Limanını "Zəfər Yolu" və Şuşa şəhərinə aparan magistral yolu ilə birləşdirən avtomobil yolunun tikintisi davam etdirilir. Bundan əlavə, hava limanının ərazisində yaşıllaşdırma işləri aparılır.

Məlumdur ki, dövlət başçısının tapşırığı ilə Laçın və Zəngilan rayonlarında da beynəlxalq hava limanlarının tikintisi davam edir. Həmin rayonlar Şərqi Zəngəzur inzibati ərazisinə aiddir. Zərrə qədər şübhə etmirəm ki, növbəti illərdə Şərqi Zəngəzurdakı həmin hava limanları da istismara veriləcək.

***Söhbəti qələmə aldı:***
***M.HACIXANLI, "Xalq qəzeti"***



Xalq qəzeti .- 2021.- 7 sentyabr.- S.4.